# Avropa təşkilatlarının siyasəti iflasa uğrayıb

## Azərbaycana qara yaxanlar indi öz təhlükəsizlikləri üçün imdad diləyirlər

**Beş il öncə Azərbaycan haqq savaşına qalxıb 30 il işğal altında olan torpaqlarının azadlığı uğrunda döyüşə başlayanda və müharibədə Zəfər qazananda Avropa qurumları ölkəmizə qarşı çox böyük ədalətsizlik etdilər. Sözdə hər zaman Qarabağı Azərbaycan ərazisi kimi tanıdıqlarını bəyan edən, BMT-nin artıq köhnəlmiş qətnamələrinin icrasının yerinə yetirilməsinin vacibliyini vurğulayan Qərbin "ali" təşkilatları savaş başlayanda Azərbaycanı hətta "işğalçı" da adlandırıb Ermənistanın müdafiəsinə qalxdılar.**



Tam 30 il boyunca Hayastanın müdafiəsində duran, Azərbaycana qarşı ikili standartlar prinsipi ilə yanaşıb keçmiş münaqişənin uzanması üçün yüz oyundan çıxan Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti 44 günlük Vətən müharibəsindən sonra daha da qəlizləşdilər. Ölkəmizə qarşı tam ədalətsiz mövqe sərgiləndi, qətnamələr qəbul edildi. Amma sonda ədalət yerini tapdı.

Ümumiyyətlə, Azərbaycan AŞPA-ya üzv olduğu 2001-ci ildən bəri bu təşkilatdan əsasən ermənipərəst münasibət görüb. Bu özünü müxtəlif formalarda göstərib. Təşkilat bu günə qədər Ermənistanın Azərbaycana təcavüzü və ərazilərin işğalı faktına qarşı konkret mövqe sərgiləməyib. Bu qurum praktiki əhəmiyyəti olmayan bir neçə formal bəyanatdan o tərəfə keçə bilməyib. Daha dəqiq desək, bunda maraqlı olmayıb. Halbuki AŞPA-ya üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. Baxmayaraq ki, ilkin dövrlərdə Azərbaycanda bununla bağlı müəyyən gözləntilər var idi. Düşünülürdü ki, AŞPA, Avropa Parlamenti Ermənistanın təcavüzünü pisləyəcək addımlar atacaq. Ötən illər ərzində bunların heç biri edilmədi. Heç olmasa hansısa formada təcavüz edən tərəflə təcavüzə məruz qalan tərəfə fərq qoymaq mümkün idi.

Ancaq Azərbaycan Qarabağda suverenliyini bərqərar edəndən sonra Avropa təsisatları narahat olmağa başladılar.

Həqiqət isə budur ki, Azərbaycan Avropa ilə müsəlman dünyası arasında hər zaman mənəvi körpü olub. Bakı bir sıra mötəbər tədbirlərə evsahibliyi edib. Xristian və müsəlman sivilizasiyaları arasında dialoqa, qarşılıqlı anlaşmaya töhfə verib. Əfsuslar olsun ki, Avropa təsisatları bunların heç birini nəzərə almayaraq Azərbaycana qarşı çox nankor və ədalətdən uzaq mövqe sərgiləyiblər. Bu həm də Avropa qurumlarında yaşanan siyasi-mənəvi böhranın göstəricisidir.

Məhz bütün bunları əsas götürən Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti ötən il qurumun iclasında bəyanatla çıxış edərək təşkilatdan çıxdı. Bəyanatda qeyd edilirdi ki, dünyada heç kim, o cümlədən bu zalda əyləşənlər Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməzlər. AŞPA-nın tarixində heç vaxt bu təşkilat özünü belə biabırçı şəkildə aparmayıb. AŞPA-da mövcud olan dözülməz irqçilik, azərbaycanofobiya və islamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib.

Onu da qeyd edək ki, hələ illər öncə Prezident İlham Əliyev AŞPA-Azərbaycan əlaqələrinə aydınlıq gətirərkən də bu təşkilatın ölkəmizə qarşı münasibətindən bəhs etmişdir. Avropa Şurasının Parlament Assambleyasının Azərbaycana qarşı nifrət aşıladığını deyən Prezident qeyd etmişdi ki, məhz bu cür fəaliyyətə görə son vaxtlar Avropa Şurası Parlament Assambleyası tamamilə nüfuzdan düşən bir quruma çevrilib. AŞPA-nın fəaliyyətinin bəşəri dəyərlərlə və beynəlxalq hüququn prinsipləri ilə üst-üstə düşmədiyini, ikili standartlar nümunəsinə rast gəldiyini qeyd edən Prezident İlham Əliyev vurğulamışdır ki, AŞPA ikili standartların ən geniş vüsət aldığı regional platformadır və təəssüf ki, Azərbaycan bu yanaşmanın əsas hədəflərindən biri olmaqda hələ də davam edir. Təxminən 20 ildir ki, siyasi sifariş icra edən bir sıra şəxslər AŞPA tribunasından ölkəmizə qarşı əsassız tənqidlər və böhtanlar səsləndirmək üçün istifadə etməyə çalışırlar.

Həqiqətən də zaman göstərdi ki, Azərbaycan Prezidenti hər zaman olduğu kimi, yenə də reallıqları səsləndirib. Bu gün AŞPA, Avropa Parlamenti qoca qitənin düşdüyü vəziyyətdən qurtuluşu üçün bir yol tapa bilmirlər.

Bu günlərdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov da mətbuata müsahibəsində bu məsələlərə bir daha toxunaraq bildirib ki, Azərbaycana qarşı çirkin kampaniyalar aparan həmin təşkilatların bəzi Avropalı üzv dövlətləri özləri üçün təhlükəsizliklə bağlı zəmanət axtarırlar. İndi onlar Avropanın gələcəyini, kimlərlə əlaqələrin qurulmasının vacibliyini düşünürlər. Əlbəttə, bütün bunlar, ilk növbədə, dəyişikliklər tələb edir. Əgər bu, baş verməsə, problemlər getdikcə böyüyəcək. Əgər dəyişikliklər olarsa, bu, onların siyasətində hansısa dəyişikliklərə gətirib çıxaracaq.

Diqqət etsək görərik ki, Avropa İttifaqı hazırda təkcə enerji böhranına deyil, siyasi böhrana da qədəm qoymaq ərəfəsindədir. Məsələyə geosiyasi baxımdan yanaşsaq, Azərbaycanın Avropa üçün siyasi və iqtisadi əhəmiyyətinin artdığını görərik.

Əgər Avropa dövlətləri təhlükəni hiss etməsəydilər, hakimiyyətə gəlməsini istəmədikləri ABŞ Prezidenti Donald Trampa "elçi düşməzdilər".

Səməd Seyidov buna da aydınlıq gətirərək deyib ki, bu gün Avropa daxildəki bəzi qüvvələrin həyata keçirdiyi siyasətin qurbanı olub. Ona görə də Azərbaycana müraciət etməklə yanaşı, həm də gedib Trampın ətrafında oturub özlərinə təhlükəsizlik zəmanəti axtarırlar. Onların siyasəti iflasa uğrayıb.

Komitə sədri də hesab edir ki, AŞPA-da mütləq dəyişikliklər həyata keçirilmədir. Əks təqdirdə, təşkilat çox şey itirəcək: "Hər bir halda bu kimi dəyişikliklər mütləq baş verəcək. Dəyişikliklər bu təşkilatları əhatə etməsə, onun Avropanın siyasi səhnəsindən çəkilməsi labüd olacaq. Çünki Avropa Şurası, Avropa Parlamenti bugünkü Avropanın tələblərinə uyğun deyil. Onlar özlərində ciddi islahatlar aparmalıdırlar. Özlərində güc tapıb Cənubi Qafqazdakı əsas faktor olan Azərbaycan Prezidenti İlham Əliyevin, ABŞ-də isə Prezident Donald Trampın yaratdığı yeni reallığı qəbul edəcəklərsə, həmin təşkilatların gələcəyi olacaq. Amma öz mövqelərində qalıb el məsəlində deyildiyi kimi, "burada mənəm, Bağdadda kor xəlifə" anlayışı ilə yaşayacaqlarsa, belə bir siyasətin axırı olmayacaq".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 2 sentyabr (№185).- S.9.